## Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən gənclər təşkilatları üçün 2024-cü il üzrə elan edilən qrant müsabiqəsinin mövzu istiqamətləri

**İstiqamət 1: Azərbaycanın gələcəyi**

- İşğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq prosesində gənclərin iştirakının təmin edilməsi;
- Qarabağ və Şərqi Zəngəzur bölgələrində gənclərin təşəbbüslərinin dəstəklənməsi;
- Qərbi Azərbaycanın həqiqətləri, mədəniyyəti, tarixi şəxsiyyətlərinin tanıdılması.

**İstiqamət 2: Milli dəyərlər və vətənpərvərlik**

- Milli və multikultural dəyərlərin gənclər arasında təbliğ edilməsi;
- gənclər arasında vətənpərvərlik ruhunun yüksəldilməsi;

**İstiqamət 3: Vətəndaşlıq**

- Məsuliyyətli vətəndaş modelinin gənclərə aşılanması;
- gənclərin hüquqi maarifləndirilməsi;
- gender bərabərliyinin təmin olunması üçün maarifləndirmənin aparılması;
- erkən nikahların qarşısının alınması üçün tədbirlərinin təşkili;
- gənclər arasında dini radikallıq və ekstremizmə qarşı maarifləndirmənin aparılması;
- ictimai yerlərdə davranış mədəniyyəti barədə maarifləndirmənin aparılması;

**İstiqamət 4: Gənclərin inkişafı**

- Gənc alimlərin elmi fəaliyyətinin stimullaşdırılması;
- gənclərin bilik, bacarıq və qabiliyyətlərinin müasir tələblərə uyğun yüksəldilməsi;
- gənclər arasında natiqlik və ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsi;
- yaradıcı gənclərin təşəbbüslərinin dəstəklənməsi;
- kənd gənclərinin inkişafı üçün fəaliyyətlərin təşkil olunması;

**İstiqamət 5: Sağlam həyatın təbliği və sağlam gənclik**

- Gənclərin fiziki sağlamlığını təmin etmək üçün fəaliyyətlərin təşkili;
- zərərli vərdişlərə qarşı maarifləndirmə tədbirlərinin təşkili;
- gənclərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi;
- sağlamlıq imkanları məhdud olan gənclərin sosial reabilitasiyasının təşkili;

**İstiqamət 6: Sahibkarlıq, innovasiya və məşğulluq**

- Gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviq olunması;
- təcrübə proqramlarının təşkil olunması;
- müasir peşələr və peşə seçiminə gənclərin həvəsləndirilməsi;
- internat və uşaq evlərində yaşayan və məzun olan gənclərin məşğulluğuna kömək göstərilməsi;

**İstiqamət 7: Media və İT**

- İnformasiya mübarizəsində fəal iştirak üçün gənclərin yetişdirilməsi;
- media savadlılığının artırılması;
- gənclər arasında informasiya texnologiyalarından faydalı istifadənin təbliği;

**İstiqamət 8: Ətraf mühitə qayğı**

- Ətraf mühitin mühafizə olunmasında gənclərin təşəbbüslərinin reallaşdırılması;
- qlobal problemlərin həllinə dair tədbirlərin təşkil olunması;

**İstiqamət 9: Əməkdaşlıq və yeni imkanlar**

- Gənclərin və gənclər təşkilatlarının beynəlxalq əməkdaşlığının və mübadiləsinin genişləndirilməsi;
- özəl sektorla Korporativ Sosial Məsuliyyət çərçivəsində gənclər üçün əməkdaşlıq imkanlarının artırılması;